# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 372** **Bakı şəhəri, 27 sentyabr 2022-ci il**

***"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473, № 12, maddələr 2047, 2055, 2061; 2020, № 1, maddə 84, № 2, maddələr 185, 195, 219, № 3, maddələr 345, 375, № 4, maddə 488, № 8, maddə 1130, № 10, maddə 1267; 2021, № 1, maddə 94, № 2, maddə 201, № 3, maddə 271, № 4, maddələr 392, 422, № 9, maddə 1053, № 10, maddə 1172, № 12, maddələr 1516, 1519, 1536, 1541; 2022, № 1, maddə 83, № 3, maddələr 266, 280, № 4, maddə 396, № 5, maddə 545, № 6, maddələr 669, 681; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 23 avqust tarixli 324 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. "2404 12 000 2" və "2404 19 000 2" alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2404 12 000 2 | – – – birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri | əd | 15 |
| 2404 19 000 2 | – – – birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri | əd | 15 |

1.2. 2403 99 900 4 alt yarımmövqeyinə aid sətir çıxarılsın.

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti .-2022.- 29 sentyabr.- S.8.